# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# Ə M R

№ 44

**Bakı şəhəri** "27" dekabr 2017 il

*Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanının icrası haqqında*

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar kommunal xidmətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq, nəzarət mexanizmlərini daha da təkmilləşdirməklə bu sahənin davamlı inkişafına nail olmaq, enerji təchizatında şəffaflığı və çevikliyi, habelə sözügedən xidmətlərin sahibkarlar üçün əlçatanlılığını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı qüvvəyə minmişdir. Qeyd edilən Fərmanın icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanının (bundan sonra – Fərman) 6.4-cü bəndinin icrası məqsədilə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyində Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra - Agentlik) dövlət qeydiyyatına alınması təmin edilsin. **(S.Vəliyev, İ.Ağayev)**

2. Fərmanın 5.1-ci və 5.7-ci bəndlərinin icrası məqsədilə Agentliyin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının qanunlarının uyğunlaşdırılmasına dair, həmçinin ölkə Prezidentinin aktlarının, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflər 1 ay müddətində hazırlanaraq Nazirliyin rəhbərinə təqdim edilsin. **(S.Vəliyev, İ.Ağayev)**

3. Fərmanın 5.2.1-ci yarımbəndinin icrası ilə bağlı Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət Enerji Nəzarəti İdarəsinin və Dövlət Qaz Nəzarəti İdarəsinin istifadəsində olan əmlakın Agentliyin balansına verilməsi üzrə tədbirlər görülsün. **(S.Vəliyev, İ.Ağayev, F.Bağırov, R.Əliyev)**

4. Fərmanın 5.2.2-ci yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Fərmanla təsdiq edilmiş Nizamnamədə nəzərdə tutulan funksiyaları yerinə yetirən digər struktur bölmələrinin (qurumlarının) ləğv edilməsi və onların əmlakının Agentliyin balansına verilməsi, habelə ştat vahidlərinin ixtisarı ilə bağlı təkliflər hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması üçün Nazirliyin rəhbərinə təqdim edilsin. **(S.Vəliyev, İ.Ağayev, Ə.İsmayılov, F.Bağırov, R.Əliyev)**

5. Fərmanın 5.2.1-ci və 5.2.2-ci yarımbəndlərinə uyğun olaraq Agentliyin balansına veriləcək dövlət əmlakının qiymətləndirilməsi ilə bağlı tədbirlər görülsün və qiymətləndirilmə başa çatdıqdan sonra Agentliyin nizamnamə fondunun dəqiqləşdirilməsi ilə bağlı təkliflər hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması üçün Nazirliyin rəhbərinə təqdim edilsin. **(S.Vəliyev, İ.Ağayev, F.Bağırov, R.Əliyev)**

6. Fərmanın 5.5-ci bəndinin icrası məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində Azərbaycan Respublikası Energetika Nazirliyinin bu Fərmanla təsdiq edilmiş Nizamnamədə təsbit edilmiş funksiyaları həyata keçirən struktur bölmələri (qurumları) üçün nəzərdə tutulacaq vəsaitin Agentlik dövlət qeydiyyatına alındıqdan sonra Agentliyə ayrılması ilə bağlı tədbirlər görülsün. **(S.Vəliyev, F.Bağırov, R.Əliyev)**

7. Fərmanın 5.6-cı bəndinin icrası məqsədilə Agentliyin Nizamnamənin 5.1-ci bəndinə uyğun olaraq, Agentliyin nizamnamə fondunun formalaşdırılması ilə bağlı tədbirlər görülsün. **(S.Vəliyev, İ.Ağayev)**

8. Fərmanın 6.1-ci bəndinin icrası məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla, elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində kommunal xidmətlərin tənzimlənməsi, sahibkarlar üçün həmin xidmətlərin əlçatanlığının təmin edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin **(3 ay müddətində)** hazırlanması məqsədilə aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun rəhbəri :**

Samir Vəliyev - Azərbaycan Respublikası energetika nazirinin müavini;

**İşçi Qrupunun üzvləri:**

Zaur Məmmədov - Azərbaycan Respublikası energetika nazirinin müşaviri;

İbrahim Ağayev - Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin müdiri;

Esmira Cəfərova - Azərbaycan Respublikası Energetika Nazirliyinin

Beynəlxalq əlaqələr şöbəsinin müdiri;

| | |
|---|---|
| Amil Mürsəliyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin müdiri; |
| Elxan Həşimov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji siyasəti və yanacaq-enerji resursları şöbəsinin müdiri; |
| Xalidə Məsimova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdiri; |
| Rafiq Əliyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat, elm və innovasiyalar şöbəsinin müdiri; |

9. Fərmanın 6.2-ci bəndinin icrası məqsədilə elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi qaydasının layihəsi 1 ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Nazirliyin rəhbərinə təqdim edilsin. **(S.Vəliyev, N.Abbasov, Z.Məmmədov, İ.Ağayev, E.Həşimov, A.Mürsəliyev)**

10. Fərmanın 6.4-cü bəndinin icrası məqsədilə elektrik, istilik enerjisi və qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələrin Agentliyə ödəyəcəkləri haqqın məbləği və ödənilməsi qaydası barədə təkliflər 15 gün müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması üçün Nazirliyin rəhbərinə təqdim edilsin; **(S.Vəliyev, N.Abbasov, İ.Ağayev, R.Əliyev)**

11. Fərmanın 6.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Agentliyin strukturunun, işçilərinin say həddinin və əməkhaqqı fondunun layihələri 10 gün müddətində hazırlanaraq təsdiq olunması üçün Nazirliyinin rəhbərinə təqdim edilsin. **(S.Vəliyev, G.Cavadov, N.Abbasov, Z.Məmmədov, İ.Ağayev, E.Həşimov, A.Mürsəliyev, Ə.İsmayılov, A.Aydınlı)**

12. Bu əmrin sürəti Nazirliyin bütün struktur bölmələrinə (qurumlarına) çatdırılması təmin edilsin. **(E.Rzayeva)**

13. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**